**ADMİU-nun “Xalq çalğı alətləri ifaçılığı” kafedrasının müəllimi**

**Həsənov Hüseyn(Bakılı)**

## Azərbaycan qarmonunda 1\4 tonların tətbiqi məsələləri

Orta əsrlərdə Azərbaycanda dilçəkli nəfəs alətlərindən istifadə olunmuşdur və belə musiqi alətlərindən biri-dodaq qarmonunun bir növü olan *cibciq* alətidir. Hələ qədim zamanlarda Azərbaycan ərazisində özündə qarmon alətinin elementlərini əks etdirən *ərğan* və *tulum* alətləri mövcud idi. Bu alətlərdən tulum aləti müasir dövrümüzə kimi gəlib çıxsa da ərğan aləti tamamilə unudulmuşdur.

Müasir formalı əl qarmonları ilk dəfə olaraq 1822-ci ildə alman musiqiçisi Fridirix Buşman tərəfindən icad olunmuşdur. Bu qarmonların səsdüzümü diatonik olduğu üçün peşəkar ifaçıların tələblərini yerinə yetirmir və alətin texniki imkanları musiqi quruluşunun tələbələrinə cavab vermirdi. Bütün bunları nəzərə alan Tulalı qarmon ifaçısı və dirijor N.İ.Beloborodov tərəfindən ilk dəfə olaraq xromatik səsdüzümlü qarmonlar hazırlanmış və bununla da qarmon alətinin bədii-texniki imkanları son dərəcə inkişaf etdirilmişdir. N.Beloborodovun yaratdığı xromatik qarmon ifaçılarından ibarət ansamblın ifa etdiyi not əsərləri bütün musiqi ictimaiyyətinin heyrətinə səbəb olmuş və qarmon aləti peşəkar bir musiqi aləti kimi partituralara daxil edilmişdir. Tezliklə Rusiyanın bütün şəhərlərində, vilayətlərində yayılan qarmon aləti xalq və peşəkar musiqiçilər tərəfindən sevilərək, bu alət üçün solo musiqi nömrələri bəstələnmiş və köçürülmüşdür.

XIX əsrin birinci yarısında Azərbaycana diatonik qarmonlar gətirilsə də, artıq əsrin ikinci yarısından başlayaraq xromatik qarmonlara üstünlük verilmişdir. Görkəmli Azərbaycan musiqişünası Mir Möhsün Nəvvabın “Vüzühül-ərqam” əsərində qarmon alətinin adının çəkilməsi onu göstərir ki,

qarmon aləti  XIX əsrdə Azərbaycanda geniş tətbiq olunmuşdur. (1, səh. 34)

Azərbaycan musiqiçiləri qarmon aləti üzərində müxtəlif islahatlar apardıqdan sonra bu alət Azərbaycan qarmonu adı ilə tanınmağa başlamışdır. İlk növbədə sənətkarlarımız qarmon alətinin gövdəsini yığcamlaşdırmaqla onun çəkisini yüngülləşdirmişlər ki, bu da ifaçılıq prosesində yaranan maneələrin aradan qalxmasına təkan verir. Azərbaycan qarmonu üçün  “in H” kökünün qəbul edilməsi bu musiqi alətində bütün muğamların, rəqslərin, xalq mahnılarının gözəl tərzlə səslənməsinə və qarmon alətinin digər milli musiqi alətlərimizlə uzlaşmasına gətirib çıxarmışdır.

Qarmon alətinin texniki imkanlarını nəzərə alan dahi Üzeyir Hacıbəyli ilk dəfə olaraq “Arşın mal alan” operettasında, axırıncı toy pərdəsində qarmon alətindən istifadə etməklə bu aləti peşəkar səhnəyə çıxarmış və xalq çalğı alətləri orkestrinin partiturasına daxil etmişdir. Tanınmış qarmon ifaçısı Əhəd Fərzəli oğlu Əliyevin (Kor Əhəd) ifasında səslənən “Tərəkəmə” rəqsi qarmon alətinin bədii-texniki imkanlarını bir daha sübut etmiş və onun milli musiqimizə nə qədər doğma bir alət olduğunu göstərmişdir. Kor Əhədin ifasında səslənən “Segah” və “Çahargah” muğamları qarmon alətində bütün muğamlarımızın doğma dildə səslənməsinin təzahürü olmuşdur.

Qarmon alətinin texniki imkanları nəzərə alınaraq bu alətin bütün ali və orta təhsil müəssisələrində tədris olunması qarmon ifaçılığının inkişafına təkan vermişdir. İlk dəfə olaraq professor Fərahim Sadıqov və professor Oqtay Rəcəbov tərəfindən hazırlanmış qarmon üçün ilk dərs vəsaiti bu alətin mükəmməl şəkildə tədrisinə yol açmış və sonralar digər müəlliflər tərəfindən müxtəlif səpkili dərs vəsaitlərinin dərc edilməsi ölkəmizdə qarmon ifaçılığına yüksək qiymətin nəticəsi kimi qiymətləndirilmişdir.

Artiq XX əsrin ikinci yarısından başlayaraq qarmon alətində bir sıra yeniliklərin tətbiqi özünü parlaq biruzə verir. Belə ki, görkəmli qarmon ifaçısı Zakir Mirzəyev sol əlin texniki imkanlarını artıraraq, bu əllə melodiyaya uyğun ritmik fiqurasiyalar və akkordlar ifa etmişdir. Zakir Mirzəyevin icad etdiyi sol əl qarmonları isə sol əli daha çox inkişaf etmiş ifaçılar üçün əvəzedilməz bir tapıntı olmuşdur.

1978-ci ildə ilk dəfə olaraq tərəfimdən Şərq səsdüzümlü qarmon yaradılmış, onun daxilində rekonstruksiya işləri aparılmış, qrifdə “si” ilə “do” və “mi” ilə “fa” səslərinin arasında əlavə dillər qoyularaq yarımtondan kiçik səslər hasil edilmişdir. Mənim bu ixtiram Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin 9544 saylı şəhadətnaməsində öz təsdiqini tapmışdır.

Belə qarmonlar iki variantla hazırlana bilər:

1.12 səsli yarımpərdə tənəkəsinin (plankanın) lya#- do# və re# - fa# səslərinin arasını kəsib, müvafiq ¼ ton səsləri yerləşdirmək.(5 ədəd)

Nəticədə 17 səsli, ¼ tonlu yarımpərdə tənəkəsinə nail olmaq olar.

2. 18 səsli ağ pərdələrin tənəkəsinin ümumi kökünü yarım ton qaldırıb si-do, mi-fa səslərinin arasına düşən səsləri ¼ ton səslərə kökləmək və sonuncu səsi kəsmək.

Bu halda da 17 səsli, ¼ tonlu yarımpərdə kamerasına nail olmaq olar.

Qarmonun 12 səsli klassik yarımpərdə tənəkəsi (plankası)



Do# Re# Fa# Sol# Lya# Do# Re# Fa# Sol# Lya# Do# Re#

Qarmonun 5 ədəd ¼ ton səslər əlavə olunmuş 17 səsli yarımpərdə tənəkəsi (plankası) . Diyezli qammalar üçün yazılış qaydası.




Qarmonun 5 ədəd ¼ ton səslər əlavə olunmuş 17 səsli yarımpərdə tənəkəsi . Bemollu qammalar üçün yazılış qaydası.






¼ -ton səslər əlavə etdiyim Azərbaycan qarmonunun qrifinin görüntüsü (həmin dillər bağlanmış, istifadəyə hazır vəziyyətdə,)(Qara dillərin arasında, gümüşü rəngdə, 5ədəd)



¼ -ton səslər əlavə etdiyim Azərbaycan qarmonunun qrifinin görüntüsü (həmin dillər açılmış vəziyyətdə, klassik ifa üçün)

Müasir dövrümüzdə Şərq musiqisinə marağın artması el şənliklərində, radio və televiziya kanallarında səslənən musiqilərdə özünü göstərir. Belə musiqiləri ifa etmək üçün musiqi alətlərimizdə ¼ ton səslərin olması zərurəti yaranır. Bu xüsusiyyət Azərbaycan qarmonuna da aiddir. Alətdə Şərq musiqisini düzgün şəkildə və olduğu kimi ifa etmək üçün ¼ ton səslər əlavə edilməsi vacibdir.

Qeyd etmək lazımdır ki, göstərilən variantlardan ikinci variant daha əlverişli sayılır. Musiqi alətlərimizdə ¼ ton səslərin tədbiq edilməsi bəzi muğamlar və rəqslərimizin daha düzgün şəkildə ifasına şərait yarada bilər. Məsələn: “Segah”, “Şur”, “Mahur”, “Humayun”, “Bayatı-Şiraz” və s. muğamların, “Vağzalı”, “Tərəkəmə” (Segah), “Gülgəzi” (Şur) və s. xalq rəqsinin və bir sıra bəstəkar və xalq mahnılarının: “Kimlərə qaldı dünya” (Məməd Bağır), “Aşıq Gəncəli” (Emin Sabitoğlu), “Ayləli yar”, “Durnam”, “Dilbərim”, “Elə baxma”, “Bağdagül” (Şur) ifasında ¼ ton səsləri aydın eşidə bilərik. Sadalanan muğam, mahnı və rəqsləri olduğu kimi ifa etmək üçün musiqi alətlərimizdə mikrointervalların tətbiq edilməsi zərurəti yaranır.

Sonda isə bir mütəxəsis kimi arzu edirəm ki, digər musiqi alətlərimizdə də 1\4 tonların tətbiqi məsələləri daha əlverişli üsullarla həyata keçirilsin.

## İstifadə olunan ədəbiyyat

1.M.M.Nəvvab. “Vüzühül-ərqam”. Bakı, Elm, 1989.

2.Виноградов В. Узеир Гаджибеков и Азербайджанская музыка. М.,1938, с.13-14.

3.Səfərova Z. Azərbaycanın musiqi elmi. XIII-XX əsrlər. Bakı, Azərnəşr, 2006